# Şuşa Qarabağın tacıdır

**Azərbaycan ziyalılarının, o cümlədən şair, yazıçı və musiqiçilərin məskəni olmuş Şuşa Azərbaycan mədəniyyətinin, incəsənətinin, sənət nümunələrinin dünyada tanınmasında mühüm rol oynamışdır. Şuşanın Azərbaycan xalqı və dövləti üçün mühüm əhəmiyyətindən bəhs edən ümummilli lider Heydər Əliyev demişdir: "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaş üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".**




Şuşanın işğaldan azad edilməsi xalqımızın və ümumilikdə türk dünyasının qürur mənbəyinə çevrildi. Zamanında ulu öndər Heydər Əliyev dəfələrlə ən yüksək kürsülərdən xalqımızın mütləq Şuşaya və digər işğalda olan ərazilərə qayıdacağını bəyan etmişdi. Onun bu vəsiyyətini yerinə yetirməklə Prezident İlham Əliyev əsl Lider olduğunu bütün dünyaya sübut etdi. Dövlət başçımız işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində böyük əzm və iradə ilə çalışmaqla həm də gələcəyə hesablanmış addımlar atan, uzaqgörən siyasətçi olduğunu da təsdiqlədi.

Dekabrın 24-də Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfəri zamanı çıxışında "Hadrutdan sonra Şuşaya yolumuz açıldı. Hadrut işğalçılardan azad edilməsəydi, Şuşaya gedib çatmaq daha çətin olardı. Halbuki, Şuşa əməliyyatı artıq bir dastana çevrilib. Dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində Şuşa əməliyyatı haqqında indi müzakirələr gedir, təhlillər aparılır və bir çoxları, xüsusilə Şuşada olmuş insanlar inana bilmirlər ki, Azərbaycanın qəhrəman övladları yüngül silahlarla qayalara dırmaşaraq bizim mədəniyyət paytaxtımız olan, Qarabağın tacı olan Şuşanı işğalçılardan azad etdilər. Biz məhz Hadrut meşələrindən keçərək, yüksək dağları aşaraq Şuşaya yaxınlaşmışdıq və Şuşa uğrunda gedən döyüşlər artıq heç kimə sirr deyil" - deyən Prezident İlham Əliyev Hadrut əməliyyatının əhəmiyyətini xüsusi qeyd etmişdir.

Bəli, biz bu Qələbəni döyüş meydanında, şəhidlər verərək qazandıq. Bu gün ölkə Prezidenti cənab İlham Əliyev Şuşaya Müzəffər Ordunun Ali Baş Komandanı kimi səfərlər edir, Şuşanın yenidən qurulması, bərpası istiqamətində planlardan söz açır. Əlbəttə ki, bu, xalqımıza əvəzsiz sevinc bəxş edir.

Şuşa Üzeyir bəyin, Zülfüqar Hacıbəyovun, Ağalar Əliverdibəyovun, Əşrəf Abbasovun, Zakir Bağırovun, Süleyman Ələsgərovun, Cabbar Qaryağdıoğlunun, Bülbülün, Xan Şuşinskinin vətənidir. Bu torpaqda xalqımızın musiqi sənətinin ən müqtədir nümayəndələri dünyaya göz açıb pərvazlanmışdır. Keçən əsrin ikinci yarısında Azərbaycan mədəniyyətinin, poeziyasının görkəmli şəxsiyyətlərinin çoxu məhz bu torpaqda doğulmuş, bu diyarda boya-başa çatmışdı. Hələ XIX əsrdə Şuşada 22 musiqişünas, 38 xanəndə yaşamışdır. O vaxtlar da Şuşada, Cıdır düzündə, İsa bulağında bir çox yerli, məşhur xanəndə və sazəndələrin, o cümlədən şəhərin qonağı olan incəsənət xadimlərinin iştirakı ilə məclislər təşkil olunar, onlar öz çıxışları ilə tamaşaçılarda xoş ovqat yaradardılar.

Qazanılmış parlaq Qələbədən, böyük Zəfərdən sonra Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev ailə üzvləri ilə birlikdə işğaldan azad olunmuş ərazilərə dəfələrlə səfərlər etmişdir. Dekabrın 24-də cənab Prezidentin Hadrut qəsəbəsinə və Şuşa şəhərinə səfəri xüsusi əhəmiyyət kəsb edirdi. Prezidentin ad günündə Hadruta və Şuşaya səfəri bir sıra mühüm məsələləri özündə ehtiva edir. Əvvəla, bu səfər onu göstərir ki, müharibədən sonra da qüdrətli Azərbaycan Respublikası ordu quruculuğunu möhkəmləndirir. Ərazi bütövlüyümüzün qorunmasında xüsusi təyinatlı qoşun növlərinin xidmətindən danışan Müzəffər Ali Baş Komandanın Hadrutda yeni xüsusi təyinatlı hərbi hissənin açılışındakı çıxışı düşmənə verilən ən böyük ibrətamiz mesajlar idi. Hadrut qəsəbəsində Müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi cənab İlham Əliyevin yeni silahlı birləşmə olan Komando Briqadasının açılışında iştirak etməsi bütün əsgərlərimizə böyük mənəvi-psixoloji ruh verdi. Əsgərini sevən əsl Komandanın, xalqına böyük məhəbbət göstərən müdrik Prezidentin ad günündə öz xalqının yanında olması humanizm və müdrikliyin təcəssümüdür.

Bu il ərzində dövlət başçımızın mütəmadi səfərləri, diplomatik müstəvidə əldə olunan şərhsiz qələbələr, xalqımıza mədəniyyət beşiyimiz olan Şuşada təşkil olunan "Xarıbülbül" musiqi festivalı, Vaqif Poeziya Günləri, Füzulidə türk dünyasının iki lideri tərəfindən açılışı olan Beynəlxalq Hava Limanı, Zəngilanda təməli qoyulan Zəngəzur dəhlizi və s. hadisələr qürurverici anlar yaşadır.

"Bu, mənim Şuşaya bu il yeddinci səfərimdir. Şuşa hər birimizi özünə çəkir". Bunu Prezident İlham Əliyev dekabrın 24-də Şuşada, Cıdır düzündə çıxışı zamanı deyib. Şuşada müxtəlif tədbirlərin açılışlarında iştirak etdiyini xatırladan dövlətimizin başçısı bildirib ki, o tədbirlər Şuşanın Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə məxsus olmasını bir daha təsdiqləyir: "Hər dəfə Şuşada hansısa tədbir nəzərdə tutulduqda böyük həvəslə, böyük sevgi ilə, məhəbbətlə Şuşaya gəlirdim və hesab edirdim ki, bu günü də mən məhz burada - Şuşada hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etməliyəm və bunu edirəm".

Tarixi və qədim şəhərimiz Şuşa hər bir vətəndaşımızın fəxarət, qürur və qəhrəmanlıq dastanıdır. Əminliklə deyə bilərik ki, bənzərsiz təbiəti ilə göz oxşayan Şuşamız bundan sonra öz layiqli dəyərini alacaqdır. Artıq bu istiqamətdə əməli fəaliyyətə başlanılmışdır. Yaxın gələcəkdə Şuşa tamamilə yeni görkəmdə öz qonaqlarını qəbul edəcək və ən gözəl istirahət bölgəsinə çevriləcəkdir.

Hazırda Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunan ərazilərdə böyük quruculuq layihələri həyata keçirilməkdədir. Düşməndən azad edilən və tariximizdə xüsusi yeri olan dədə-baba torpaqlarımız öz doğma sakinlərinin gəlişini səbirsizliklə gözləyir. Hər kəs müharibədən sonra Qarabağda başlayan quruculuq işlərini böyük ruh yüksəkliyi, gözəl əhvali-ruhiyyə ilə izləyir.

**M.MİRZƏ,**
**"Respublika".**

**Respublika.- 30 dekabr.- 2021- ci il.- S. 12.**